**Redaksiyaya daxil olub:** 10.01.2017

# Qloballaşma dövrünün gender problemləri və onların ailədaxili münasibətlərə təsiri

**Nuralı Çələbiyev**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent,*
*ADPU-nun Şəki filialı*
**E-mail:** n_chelebiyev @mail.ru

**Rəyçilər:** ped.ü.e.d., prof. A.N. Abbasov,
psixol.ü.f.d., dos. N.T. Rzayeva

**Açar sözlər:** qloballaşma, gender, ailədaxili münasibətlər, psixoloji iqlim, psixi travma, konfilikt, gender rolları, boşanma

**Ключевые слова:** глобалзация, гендер, внутрисемейные отношения, психологический климат, психическая травма, конфликт, роли гендера, развод

**Key words:** globalization, gender, interfamily relationship, psychological climate, psychological trauma, conflict, gender roles divorce

Ailə hər bir cəmiyyətdə ictimai həyat qanunlarına əsasən yaradılan sosial təsisatlardan biridir. Qapalı kiçik sosial qrup olan ailənin ilk sosial tərbiyə institutu, sosial sistem, cəmiyyətin ilkin özəyi kimi tədqiq edilməsi, gənclərin ailə həyatına sosial-psixoloji hazırlığı səviyyəsinin yüksəldilməsi müasir qloballaşan dünyada, dəyərlər sisteminin dəyişilməsi prosesində aktual bir problem kimi diqqəti cəlb edir.

Müasir Azərbaycan ailəsi sürətlə qloballaşan dünyanın çağırışları kontekstində müxtəlif təsirlərə və bu təsirlərin nəticəsində funksional və struktur dəyişmələrinə məruz qalır. Qlobal çağırışlar və tendensiyalar dünya ölkələrinin ailə strategiyasında və strukturunda dərin dəyişikliklərə səbəb olmaqdadır. Qlobal dünyaya inteqrasiya xalqımızın min illər boyu yaratdığı və yaşatdığı bu günə qədər gəlib çatmış bir çox milli-mənəvi dəyərlərə, o cümlədən ailə dəyərlərinə ciddi zərbə vurur, yad mədəniyyətlərin təsiri altında mental ailə dəyərləri get-gedə öz təsir gücünü itirir.

Məlumdur ki,insan cəmiyyətini qadınlar və kişilər təşkil edir. Cinslər arasında bioloji fərqlər məlumdur və dəyişməz xarakter daşıyır. Lakin bu heç də kişi və qadının cəmiyyətdə tutduğu mövqenin dəyişməzliyi anlamında qəbul edilə bilməz. Qadın hərəkatının tarixi, eləcə də dünyada və ölkəmizdə bu sahədə əldə edilmiş naliyyətlər qadınların cəmiyyətdə oynadığı rolun dinamik surətdə dəyişməsindən xəbər verir. Son əsrlərin texnoloji nailiyyətləri qadınların həm məişətdə, həm də cəmiyyətdə və istehsalatda rolunu xeyli dəyişmişdir. XX əsrin ikinci yarısında sosiologiya və sosial psixologiya elmlərində "*gender*" anlayışı formalaşmışdır ki, bunu da "*sosial cins*" kimi xarakterizə etmək olar. "Kişilər və qadınlar öz potensiallarını reallaşdırmaq üçün bərabər hüquqlara malik olmalıdır, lakin şübhəsiz onlar anadangəlmə fərqli qabiliyyətlərə malikdirlər. Onlar bərabərdir, ya yox bu siyasət və əxlaqın məsələsidir" [ 1, 16 ]

Gender mürəkkəb sosiomədəni konstukdurdur, kişi və qadının cəmiyyət tərəfindən formalaşmış rollarında, davranışında, mental və emosional xüsusiyyətlərindəki fərqidir. Cinsi rolların yerinə yetirilməsi, rol-cins davranışı kontekstində həmin cəmiyyətdə nəyin kişiyə,

nəyin qadına aid edilməsi əsasında əxlaq sistemi formalaşır. Gender qadın və kişilər arasında sosial qarşılıqlı münasibətlərin təşkili modeli olaraq, yalnız onların rol-cins davranışını deyil, həm də onların bu davranışından yaranan qarşılıqlı sosial münasibətlərini də əks etdirir. Bu mənada doğru olaraq "gender" sosial cins kimi xarakterizə olunur, cinsi fərqlərin bioloji deyil, sosial xarakteristikasını əks etdirir. Lakin unutmaq olmaz ki, müasir cəmiyyət kişi dünyasında yaşayır, qadınların kişilərlə bütün sahələrdə mütləq bərabərliyi iddiaları onların "kişilərin ərazisinə müdaxiləsi" kimi qavranılır. Bu isə cinslər arasında fikir ayrılıqlarının, anlaşılmaz mübahisələrin baş qaldırmasına səbəb olur.

Azərbaycan dövlət olaraq milli müstəqilliyin bərpasından sonra gender siyasətinin həyata keçirilməsi, xüsusilə qadınların cəmiyyətdə rolunun yüksəldilməsi onların hüquqlarının qorunması və sosial fəallığın yüksəldilməsi sahəsində bir çox uğurlar qazanmış, bir sıra beynəlxalq konvensiyalara qoşulmuş, etibarlı hüquqi-normativ baza yaratmışdır. Ölkəmiz 1985-ci ildə BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında (1979) Konversiyasına qoşulmuş, Prezident Heydər Əliyev tərəfindən 1998-ci ildə "Azərbaycan qadının rolunun artırılması haqqında" Qanun, 2014-cü ildə isə "Azərbaycan Respublikasında əhali sakinliyi və demoqrafik inkişaf sahəsində Dövlət Proqramı" ( 2014-2025-ci illər) qəbul edilmişdir. 2013-cü ildə qəbul edilmiş "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasının həyata keçirilməsi ilə əlaqədar "Azərbaycan Ailə Strategiyası" adlı dövlət sənədi hazırlanmışdır. Respublikamızda gender problemi ilə bağlı bütün məsələlərin həll olunduğunu, bu sahədə hər şeyin qaydasında olduğunu söyləmək yanlışlıq olardı. Azərbaycanda "qadınların ictimai və siyasi həyatda iştirakı daha çox ənənəyə əsaslanmış mövcud gender rollarının hamı tərəfindən qəbul olunması və bəyənilməsi ilə müəyyən edilir. Qadınlara təkcə onlara şamil edilən gender rolları deyil, həm də onların zərif və "köməksiz" olmaları ilə bağlı streotiplər də zərbə vurur [ 5, 75 ].

"Arvad nədir, urvat nədir", "Arvad ar gətirər, kişi var", "Hər arvadın qucağında bir şeytan oturub", "İş ki, qaldı arvada, ölən günü sal yada", "Ata, itə, arvada etibar etmək olmaz", "Kişi Allahın yerdəki kölgəsidir", "Arvadsan, kişi işinə qarışma", "Arvadsan qaxıl otur yerində", "Arvad kişidən nə qədər qorxsa, bir o qədər yaxşıdır" və s kimi təhqiredici strereotiplər hələ də cəmiyyətdə ictimai və fərdi şüurla yaşamaqdadır. Ailələrdə qadınlara qarşı məişət zorakılığın müxtəlif təzahürlərinin, xüsusilə qəddar davranış hallarının nəinki kökü kəsilmiş, əksinə daha da artmışdır. Qadınların ağır xəsarət alması və ya ölümü ilə nəticələnən şiddətin statistik göstəricilərində artım müşahidə olunur. Məhz buna görədir ki, BMT-nin son hesabatında Azərbaycan gender məsələləri ilə bağlı problemlərin həllinə görə 193 ölkə arasında 86-ci yerdə qərarlaşır. [ 9]

Müasir dövrdə ailə dəyişmələri inkişaf etmiş sənaye ölkələrində sosial transformasiyaların dönməz mənbəyinə çevrilməkdədir. Nikahların və doğumun azalması, boşanmaların və erkən nikahların sayının sürətlə artması, ailənin etnik xarakteristikasında baş verən dəyişmələr, nikahdankənar doğumların çoxalması, bir sıra qadınların sosial sərbəstliyə can ataraq evdən getmələri, qadın alveri və s. ailənin strukturunda neqativ dinamikaya gətirib çıxarmışdır. BMT-nin 2002-ci ildə qəbul etdiyi "Pekin Deklarasiyası"nın yekun sənədlərində qeyd olunmuşdur ki, "Milli inkişaf göstəricilərində artım müşahidə olunan inkişaf etmiş və etməkdə olan bəzi ölkələrdə belə, kənd rayonlarında yaşayan qadınların əksəriyyəti yenə də əvvəlki kimi iqtisadi gerilik və sosial marginallıq şəraitində yaşayırlar [7, 3]. 2016-cı ildə Azərbaycanda 60 min 800 nikah bağlanıb ki, bu da 2015-ci ildə müqayisədə 2 min 300 azdır [8]. Ailə problemləri. Ailədə şəxsiyyətlərarası münasibətlər, xüsusilə asimpatik münasibətlərin doğurduğu fəsadlar ailənin psixoloji iqlimini korlayır, nəsillər arasında

varisliyin itməsi təhlükəsi yaradır, nikahların iflasına səbəb olur. 2016-cı ilin statistikasına görə, Azərbaycanda 13144 boşanma hadisəsi qeydə alınmışdır ki, bu da 2003-cü illə müqayisədə 2 dəfə çoxdur. Yeni nikahların dinamik göstəriciləri də aşağı düşməkdədir. [8] Qloballaşma Azərbaycan cəmiyyətinə siyasi iqtisadi texnoloji sahələrdə bir çox yeniliklər, gətirdiyi kimi ailə sisteminə bir sıra yeni qayğılar, həlli çətin olan problemlər də gətirmişdir.

Azərbaycan yazıçılarından, maarifçi və mütəfəkkirlərindən biri Y.V.Çəmənzəminli "Azərbaycanlı arvadların vəziyyəti" adlı publisistik əsərində Azərbaycan qadınlarının hüquqsuzluğundan bəhs edərək yazırdı: "Bir balaca oğlan uşağının namusu böyük arvadlarınkından üstün hesab edilir. Bunu uşaqlıqda da təlqin edirlər" [7, 105-106] Müasir Azərbaycan ailəsində baş verən böhranlı vəziyyətlər onun sosiallaşma və tərbiyə funksiyasına ciddi ziyan vurur, milli-mənəvi dəyərlərin deformasiyasına gətirib çıxarır. Sosial yetimlik, uşaq və yeniyetmələrə qarşı baxımsızlıq, cinayətkarlıq, alkoqolizm, narkomaniya nəsillər arasında varisliyin itməsi təhlükəsi kimi sosioneqativ amillər cəmiyyətimizdə vətəndaş mədəniyyətinin və böyüməkdə olan nəslin gələcəyi üçün sosial məsuliyyət hissinin yüksəldilməsi tələbini gündəmə gətirmişdir.

Hər bir cəmiyyətdə ailə həmin cəmiyyətin tarixi, inkişaf spesifikası, sosial-iqtisadi və mədəni şərtlərdən asılı olaraq özünəməxsus xarakterik əlamətlərə malik olur. Ailənin uşağa göstərdiyi tərbiyəvi təsir bütün digər təsirlərdən güclüdür. Uşaq böyüdükcə bu təsir get-gedə zəifləyir və bəzən də yoxa çıxır. Ailədə elə keyfiyyətlər formalaşır ki, bunları kənarda formalaşdırmaq mümkün olmur.

Hər bir sabit cəmiyyətdə ailənin dövri həyatında struktur, funksional və demoqrafik dəyişikliklər baş verir, doğum və ölümün nisbətində artım və ya azalma halları nəzərə çarpır. Bu demoqrafik dəyişikliklər hər bir ölkədə baş verən siyasi, iqtisadi, sosial hadisələrdən asılıdır. Burada nikah yaşı, uşaqların doğulması, onların əmək fəaliyyətinə başlaması və əməkhaqqı səviyyəsi, mənzil şəraiti, karyerada uğur və ya uğursuzluq, təqaüd yaşı və s. kimi amillərin də önəmli təsiri vardır.

Məlumdur ki, ailə iki əsas xarakterik xüsusiyyətinə - ailədaxili münasibətlərə və məişət birliyinə görə digər insan qruplarından fərqlənir. Ailənin məişət birliyi dedikdə, ailədə uşaqların tərbiyəsi, böyüməsi, ailə üzvlərinin qidaya, istirahətə, asudə vaxtın təşkilinə olan tələbatların təmin edilməsi, sosial təminat, əmək fəaliyyəti, yaşayış tərzi ailə büdcəsi və təsərrüfatı, məişət mədəniyyəti və ekologiyası nəzərdə tutulur.

Müasir ailənin həyatında özünü göstərən ciddi problemlərdən biri münaqişələrin və onunla bağlı şiddət və ailə-məişət zorakılıqlarının çoxalmasıdır. Müasir Azərbaycan ailələrində psixoloji yadlaşma, kəskin konfliktlərin artması dinamikası müşahidə olunur. Ailədə "Qadınlara qarşı zorakılıq dünyada bərabərlik və inkişaf məqsədlərinə nail olmaq yolunda başına maneədir" [ 7, 94].

Amerika sosioloqu Robert Bibinin fikrincə, müasir dövrdə yeni qurulan ailələrdə ərlə arvadın çətinliklərə dözməməsi, bir-birini başa düşməməsi, güzəştə getməməsi münaqişələrə və əksər hallarda boşanmalara səbəb olur ki, bunun da kökündə kapitalizm cəmiyyətinin ağır iqtisadi sarsıntıları və eybəcərlikləri durur.

Müasir dövrdə hər iki cütlüyün öz qarşısına peşə karyerası, inkişaf və özünüreallaşdırma kimi məqsədlər qoyduğu "*ikikaryerali*" adlandırılan yeni ailə tipi meydana gəlmişdir. Belə ailələrdə rolların bölünməsi və ailədə hakimiyyət, liderlik məsələsi, şəxsi və ailə dəyərlərinin ümumiliyi, habelə, uşaqların tərbiyəsi, məişət – təsərrüfat sahəsində qüvvələrin cəmləşdirilməsi, ailə büdcəsinin birgə formalaşdırılması və s. kimi vəzifələr aktuallaşmışdır.

Müasir ailə quran gənclər arasında kəskin yaş fərqi bəzən 15-20 yaş, bəzən isə qadının

kişidən yaşca böyük olması halları nəzərə çarpır. Bu isə ailə quran kişilərin qadınlardan 8-10 il əvvəl həyatdan getməsi ilə nəticələnir. Müasir ailənin spesifik xüsusiyyətlərindən biri də təkrar nikahların çoxalmasıdır. İlk nikahda öz həqiqi "yarısını" tapmadığına əmin olan və buna görə də boşanmaya üz tutan insanlar yeni nikahlar vasitəsilə sevgi boşluğunu doldurmağa çalışırlar. Təkrar nikahlar əsasında yaranan ailələrin əksəriyyətində isə aliment və uşaqların ogey-doğmalığı problemi baş qaldırır.

Uşaq evlərində ikən yeni doğulmuş körpədən imtina edən və ya sonralar uşaqlarını atan valideynlərə müasir cəmiyyətdə heç də az rast gəlinmir. Nəticədə uşaq evlərinin, internatların və nəzarətsiz küçə uşaqlarının sayı artır, uşaq dilənçiliyi, uşaq qarətləri kimi hallar cəmiyyəti ciddi düşündürən problemə çevrilir.

Müasir cəmiyyətdə nikahın qeyri-rəsmi olan *tənhalıq, "vətəndaş nikahı "və "ana ailələri"* kimi alternativ formaları meydana gəlmiş və cəmiyyətdə onlara liberal münasibət formalaşmaqdadır. İndiki cəmiyyətdə "ana" və "uşaqlar" adi hadisədir.

Beləliklə, boşanmaların, sonsuzluğun, nikah yaşı ötmüş və ailə qura bilməmiş yetkin insanların artması, eynicinslərin nikahı əsasında "*ekzotik" ailələrin* yaranması və s. kimi artan neqativ hallar və ailə münasibətlərinin kəskinləşən formaları ailənin məhvi haqqında nəzəriyyənin tərəfdaşlarına bədbin proqnozlar irəli sürməyə müəyyən əsaslar vermiş olur.

Müasir ailəli kişi və qadınların bir qismi öz vaxtlarının çox hissəsini öz ailəsi ilə real ünsiyyətdə deyil, sosial şəbəkələrə qoşulmaqla virtual ünsiyyətə keçirirlər. Onlar virtual tanış olduqları adamlarla intin yazışmalara qoşulur, şəxsi və ailə həyatlarının sirlərini onlarla bölüşürlər. Müasir statistikaya görə hər 5-6 ailədən biri məhz sosial şəbəkələrdən xəlvəti istifadə nəticəsində yaranan xəyanət şübhəsi və ya qısqanclıq səbəbindən dağılır.

Ötən onilliklər ərzində cəmiyyətimizdə həyata keçirilən *gender siyasəti* və bunun nəticəsi olan kişilərlə qadınların sosial statuslarının bərabərləşdirilməsi öz təsirini ailə münasibətlərinə də göstərmişdir. Patriarxal ənənəvi ailə zaman keçdikcə öz yerini *eqalitar-tərəfdaş* ailə tipinə vermişdir. Eqalitar-tərəfdaş ailə ər-arvad cütlüyünün hüquq bərabərliyi, ev təsərrüfatının bərabər əsaslarda birgə idarə edilməsi, uşaqların tərbiyəsində valideynlərin birgə iştirakı və ailə büdcəsinin formalaşmasında ərlə arvadın hər ikisinin iştirakı kimi əlamətlərlə səciyyələnir.

Müasir Azərbaycan cəmiyyətində urbanizasiya və miqrasiya prosesləri ailədə uşaqların sayı, peşə və sosial mobillik və s. kimi məsələlərlə yanaşı, ailə-nikah münasibətlərinin xarakterində də ciddi dəyişmələrə səbəb olur.

*Ailə konfliktləri* ər-arvad, uşaqlar və valideynlər üçün psixotravmatik vəziyyət yaradır ki, bu da öz növbəsində *ailədaxili psixoloji iqlimi* nəinki korlayır, hətta şəxsiyyətin disharmoniyasına belə gətirib çıxarır. "Müasir həyatımızda da psixoloji iqlim ailə üçün xüsusi əhəmiyyətə malikdir. Ailədə əlverişli psixoloji iqlim-xoş güzəran, mənalı ömür, psixi sağlamlıq deməkdir. Ər-arvad ünsiyyətinin xarakteri ailədə psixoloji iqlimin əlverişli olub olmadığını göstərən mühüm amillərdən biridir" [ 6, 37].

Konfliktli ailədə formalaşan mənfi ünsiyyət təcrübəsi get-gedə möhkəmlənir, dostluq və qarşılıqlı anlaşmaya əsaslanan səmimi ünsiyyət imkanları itirilir, *psixi travmaya* səbəb olan mənfi psixoemosional davranış tərzi formalaşır. Öz hüquqlarını müdafiə edə bilməyən və buna görə aciz vəziyyətdə qalan qadınlarda nevrotik pozulma hallarının tez-tez təsadüf olunur. Məşhur Amerikan psixoloqu Karen Horni bütün nevrozların mənbəyini insanların bazal həyəcanlarında axtarırdı. O, 1939-cu ildə çap olunmuş "Psixoanalizdə yeni yollar" əsərində yazırdı ki, alçaldıcı şər, paxıllıq, söyüş dolu, satqın və təzyiqli həyat qarşısında insan özünün köməksizliyini hiss edir [3, 79]. Ailədə baş verən sürəkli münaqişələr, uğursuzluqlar – doğma

adamın ölümü, yanğın, qəza, zorakılıq, boşanma, həbs kimi hallar ailə üzvlərinin hər birinə, o cümlədən ailənin kiçik yaşlı üzvləri olan uşaqların psixikasına sarsıdıcı təsir göstərir, unudulması mümkün olmayan psixi travma mənbəyinə çevrilir. Bütün bunlar isə sonralar uşaqların psixikasında *postravmatik stresslər* şəklində öz izini qoyur.

*Müasir ailə* dedikdə, ilk növbədə məhəbbətə, emosional simpatiyaya və qarşılıqlı dəstəyə əsaslanan ailə tipi nəzərdə tutulur. Bu heç də ailənin məhz bu meyarlar əsasında yaradıldığını inkar etmir lakin müasir dövrdə qeyd olunan bu amillər heç də əsas meyara çevrilməmişdir. Müasir dövrdə cəmiyyətimiz genişlənmiş, yəni *mürəkkəb* ailədən *sadə*, *nuklear* ailə tipinə keçid tendensiyası diqqəti cəlb edir.

*Ailədə əlverişsiz psixoloji iqlim* ailəni depressiya və stresslərə, mübahisə və münaqişələrə sürükləyir. Belə ailələrdə müsbət emosiyaların çatışmazlığı, gərginlik, küsülülük və inciklik halları tez-tez baş verdiyindən bu artıq bir həyat tərzinə çevrilir.

Müasir cəmiyyətdə geniş yayılmış konfliktlər sırasında ailədə *nəsillərarası ixtilaflar* özlərinin kəskin xarakteri ilə diqqəti cəlb edir. Bu tip konfliktlər ailə konfliktlərinin xüsusi tipi kimi valideynlərlə övladların qarşılıqlı münasibətlərinin xarakterinə əhəmiyyətli təsir göstərir. Sosial-psixoloji tədqiqatlarda (V.Şuman. İ.S.Kon, A.Uşatikov, A.Çpivakovskaya və b.) ailə konfliktlərini müxtəlif aspektlərdən araşdırılmışdır. Onların qənaətinə görə, elə bir ailə tapmaq mümkün deyil ki, orada uşaqlarla valideynlər arasında konfliktlərə təsadüf olunmasın. İ.Qorkovayanın tədqiqatlarına görə, hətta əlverişli ailələrin 30%-də hər iki valideynlə konfliktli qarşılıqlı münasibətlər müşahidə olunur.

Müasir cəmiyyətdə yaranan yeni tipli dəyər-motivasiya strukturları etnomədəni sistemlərin transformasiyasına səbəb olmuşdur. Azərbaycanda ailənin inkişafı strategiyası ailənin maddi vəziyyəti, rifah səviyyəsi və ailədaxili münasibətləri şərtləndirən başlıca amillərdən biri olan nikahın uğurlu olması ilə şərtlənir.

Fərdin ailədə icra etdiyi rollar onun tələbatlarını təmin etməli, nüfuzuna, simpatiyasına, ona qarşı hörmətə zərbə vurmamalıdır. Məsələn, "ər" rolu yalnız müəyyən vəzifələri deyil, həm də müəyyən hüquqları nəzərə tutur. Bu sosial rolu yerinə yetirərkən ər məhəbbət, hörmət, özünün seksual-erotik və digər tələbatlarının təmin olunmasını gözləyir.

Fərdin yerinə yetirməli olduğu rol onun imkanlarına uyğun olmalıdır. Fərd üzərinə qoyulmuş rolu yerinə yetirmək iqtidarında olmadıqda onda qorxu, yüksək məsuliyyət hissi, sinir-psixi gərginlik, öz qüvvəsinə inamsızlıq yaranır, fərsiz və qabiliyyətsiz adam damğası onu təqib edir ki, bu da psixi travmatik təsir göstərən amilə çevrilir. Fərdin icra etdiyi *ailə rolları sistemi* elə olmalıdır ki, o, yalnız bir fərdin deyil, bütün digər ailə üzvlərinin də tələbatlarının təmin olunmasına imkan yaratmış olsun. Ailədə bir nəfərin həyatı və ya istirahəti digər ailə üzvlərinin fasiləsiz zəhməti və gərgin əməyi sayəsində təmin olunur və ailənin digər üzvləri heç vaxt rahatlıq tapa bilmirsə, bu psixi travma mənbəyinə çevrilir. (Məsələn, ailədə ağır yataq xəstəsinin və özünə xidmət edə bilməyən əlil ailə üzvünün olması).

ABŞ psixoloqu D.Mayersin qeyd etdiyi kimi, uşaqlar ərsəyə çatanda və yaşlaşanda aşağıdakı mənzərəni görürük: "hər yerdə" qadınlar ev işlərinin çox hissəsini yerinə yetirirlər, "hər yerdə" yeməyin hazırlanması və ya qabların yuyulması kimi ev vəzifələri bir qayda olaraq onların missiyası sayılır. Bu kimi davranış gözləmələrindən kişi və qadın üçün "*gender rolları*" formalaşır. Gender rolları mədəniyyətdən və epoxadan asılıdır. Hər hansı cəmiyyətdə zorakılığın olması həmin cəmiyyətdə sağlam mənəvi-psixoloji iqlimin olmadığına və gender bərabərsizliyinin hökm sürdüyünə işarədir. Azərbaycanda İslam dininin yayılması qadına olan münasibəti kökündən dəyişdi. Quran ayələrinin təhrifi, birtərəfli yozumu, yanlış

şərhi kişilərə ailədə və cəmiyyətdə həddən artıq geniş səlahiyyətlərin verilməsi və əksinə, qadınların hüquqlarının həddən artıq məhdudlaşdırılması ilə nəticələndi [6, 74 ]. Dünyada müasir dövrdə də qızlara qarşı diskriminasiya və zorakılığı sübuta yetirən çoxsaylı faktlar mövcuddur. Belə hallar qızların həyatının erkən dövrlərindən başlayır və bütün həyat boyu davam edir. Onların qidaya, fiziki və psixoloji sağlamlığı, təhsilə olan hüquqları oğlanlarla müqayisədə daha məhduddur. Qızlar çox vaxt müxtəlif formada cinsi və iqtisadi zorakılıqların qurbanı olur, pedofiliya, fahişəliyə cəlb edilmə, doğulmazdan əvvəl cinsin təyini və selektiv abort, erkən və məcburi nikah kimi halların qurbanı olurlar [2, 40].

Ailə-məişət zorakılığından yalnız döyülən qadın və döyən kişi əziyyət çəkmir, bu cür hadisələr ailənin digər yaşlı üzvlərinə və uşaqlara da sarsıdıcı təsir göstərir, onların psixoloji travma almasına səbəb olur. Psixoloqların qənaətinə görə, arvadlarını döyən kişilərin 60%-i uşaqlarını da döyür. Belə kişilərin aqressiv davranışının kökündə çoxsaylı səbəblər durur. Bunlardan ən başlıcası uşaqların kiçik yaşlarında öz ailələrində atalarının analarına qarşı zorakı səhnələrlə qarşılaşmalarıdır. Müstəqil ailəyə sahib olduqdan sonra onlar belə yol verilən davranış forması kimi qəbul edir və belə davranışı imitasiya edirlər.

Normal ana davranışının formalaşmasına mənfi təsir göstərən amillərdən biri də *erkən nikahlar və hamiləlikdir.* Rus psixoloqu S.O.Kaşapovanın tədqiqatları göstərmişdir ki, analıq hissinin formalaşması prosesini ləngidən amillər sırasında analıq motivasiyasının olmaması, uşaq gözləyən gənc qızlarda hamiləliyə infantil münasibət kimi amillərin də güclü təsiri vardır.

“Deviant analıq” müasir dövrdə psixologiyada nəzəri və praktik aspektə tədqiq edilən kəskin problemlərdən biridir. Buraya yalnız öz uşaqlarından imtina edən və onlara açıq formada etinasızlıq və zorakılıq göstərən analarla bağlı problemlər deyil, həm də uşağın körpəlik, erkən və məktəbəqədər yaşlarda optimal psixi inkişafına mane olan və normadan kənaraçıxmaya, uşağın emosional məmnunluğunun aşağı düşməsinə səbəb olan problemlər daxildir.

Hazırda Azərbaycanda həyata keçirilən gender siyasəti qadınların sosial fəallığının yüksəldilməsi strategiyası ilə sıx bağlıdır. Bu sahədə genişlənən səylər sintetik mədəniyyətin üstün olduğu ölkəmizdə hər iki cinsin cəmiyyətdə yeri və rolu problemini elmi cəhətdən əsaslandıraraq bəşəri, milli və dini dəyərlər də nəzərə alınmaqla optimal tənzimləmə mexanizminin qurulmasına təminat verir.

**Məqalənin aktuallığı.** Bəşər cəmiyyətinin indiki inkişaf mərhələsi siyasi, iqtisadi, sosial və mənəvi həyatın bütün sahələrində dərin dəyişikliklərə müşayiət olunur. Baş verən bu dəyişikliklər cəmiyyətin mühüm strukturlarından və alt sistemlərindən biri kimi ailədən də yan keçmir. Qlobal çağırışların təsiri altında müasir Azərbaycan ailəsində modernləşmə prosesləri sürətlənir, bir sıra dəyərlər transformasiyaya uğrayır. Ailədə ənənəvi gender rollarında bir sıra dəyişmələr, baş verir ki, bu da kişi və qadınların rol-cins davranışında və bundan asılı olaraq, onların qarşılıqlı münasibətlərində sıra gərginliklərə səbəb olur.

**Məqalənin elmi yeniliyi.** Müasir psixologiya və sosiologiyada “sosial cins” kimi nəzərdən keçirilən gender problemi ilə bağlı tədqiqatlar xeyli genişlənmişdir. Ötən onilliklər ərzində ölkəmizdə gender problemi ilə əlaqədar həyata keçirilən dövlət siyasəti və bunun nəticəsi olaraq cəmiyyətdə kişi və qadınların hüquqlarının, sosial statuslarının bərabərləşdirilməsində əldə edilən bir çox uğurlarla yanaşı, hələ də həll edilməmiş bir sıra problemlər qalmaqdadır. Gender problemi ailə-məişət həyatında tam gerçəkləşmədiyinə görə, qadınlara aid bir sıra ənənəvi stereotiplər hələ də yaşamaqdadır və bunlar ailədaxili münasibətlərə və get-gedə çoxalan boşanmalara yol açır. Məqalədə gender rollarındakı fərqlər, onlardan irəli gələn problemlərin ailədaxili münasibətlərə təsiri araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatdan əldə olunan nəticələrdən ali məktəblərin "psixologiya", "pedaqogika-psixologiya" və "təhsildə sosial-psixoloji xidmət" ixtisaslarının bakalavr və magistr pillələrində təhsil alanlar, "Gender və ailə psixologiyası", "Ailə psixologiyası", "Ailə dəyərləri" fənlərini tədris edən müəllimlər və ailə problemləri üzrə tədqiqat aparanlar faydalana bilərlər.

## Ədəbiyyat

1. А. Пиз, Б. Пиз. Язык взаимоотношений мужчина-женщина. М.: Эксмо.
2. Çəmənzəminli Y.V. Seçilmiş əsərləri. Bakı: Gənclik, 1976.
3. Çələbiyev N.Z. Dünyanın məşhur və tanınmış psixoloqları: Tarixi-bioqrafik oçerklər. Bakı: ADPU, 2017.
4. Əmrahlı L.Ş. Şəxsiyyət və cəmiyyət: Psixoloji etüdlər. Bakı: MBM, 2007.
5. İbrahimbəyova R.F. Qadınlar siyasətdə. Bakı: Səda, 2008.
6. Quliyeva N.M. Müstəqillik illəri Azərbaycan ailəsi. Bakı: Elm , 2006.
7. Пекинская декларация и платформа действий Пекин + 5 Политическая декларация и итоговый документ. ООН, Нью- Йорк, 2002.
8. Sadıqlı F. Dəyərlər dəyərsizləşəndə. "Azərbaycan" qəz., 2017, 6 iyun
9. Yusifzadə M. Davamlı inkişafda qadınların rolu artır. "Xalq qəzeti", 2017, 10 iyun

**Н. Чалабиев**

## Гендерные аспекты глобализации и их влияние на внутрисемейные отношения

## Резюме

Автор, акцентируясь на неизбежной реальности интеграции азербайджанской семьи в глобальный мир, отметил, что глобальная интеграция стала причиной ряда структурных и функциональных изменений в модели азербайджанской семьи. А это актуализирует гендерные роли в семьи, серьезно влияет на характер внутрисемейных отношений, приводит к росту бракоразводных процессов.

**N. Chalabiyev**

## The gender dimensions of globalization and their impact on family relations

## Summary

The author, emphasizing the inevitable reality of integration of the Azerbaijani family in the global world, noted that global integration caused a number of structural and functional changes in the model of the Azerbaijani family. And this actualizes gender roles in families, seriously affects the nature of intra-family relations, leads to the growth of divorce proceedings.